Ədəbiyyat QƏZETİ

5 iyun 2024-cü il 17

# Uşaq sözlərindən doğulmuş şeirlər

*Uzaqda bir külək var,*
*küləyin üstündə bayraq!*

**Balaca Mehriban**

***Bacarsan, bağışlayarsan,***
***bacarmasan, lazım da deyil.***
***Bacarsam, unudaram,***
***bacarmasan, lazım da deyil.***
***Otağa deyilmiş şikayətlər***
***otaqda qalır.***
***Fırtınada yan almayıb limana,***
***gəmilər lövbəri uzaqda salır...***
***Uzaqda bir külək var,***
***küləyin üstündə bayraq...***

***Dünyada səndən başqa***
***kimsəm yox idi bəlkə.***
***Amma sən də sağ qaldın,***
***sağ qaldın yad olmaqçün.***
***İndi özündən küs,***
***mənim min imanım var dünyada...***
***Uzaqda bir külək var,***
***küləyin üstündə bayraq...***

*1969*

* * *

*Mən bir gün*
*qəşəng olmuşdum!*

**Balaca Humay**

***Mən bir gün üfüq olmuşdum,***
***duman çökdü dənizə...***
***Görünmədim.***

***Mən bir gün çığır olmuşdum,***
***gedib-gələn olmadı, ot basdı üstümü...***
***Görünmədim.***

***Mən bir gün təbəssüm olmuşdum,***
***nə oldu, bilmədim...***
***Görünmədim.***

*1969*

* * *

*Arif mənim maşınımı sındırdı.*
*Nə olsun?*
*Başqasını verrəm, qoy, oynasın!*

**Balaca Tural**

***Sənə, "sevirəm" dedim.***
***Salıb sındırdın məhəbbətimi...***
***Bir də "sevirəm" dedim!***

***Sənə, "bağışla" dedim.***
***Salıb sındırdın günahımı...***
***Bir də "bağışla" dedim!***

***Sənə, "məni unutma" dedim.***
***Salıb sındırdın xatirələri...***
***Bir də "unutma" dedim!***

***Sənə həyatımı verdim.***
***Salıb sındırdın ömrümü...***
***Başqa ömür hardan verim?***

*1969*